# YAŞIL UNEC İLİ 2024

**№ 1** **10 Aprel 2024**

## UNEC-də “Yaşıl UNEC” ili elan olunub

2024-cü ilin Prezident İlham Əliyev tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsini nəzərə alaraq, Azərbaycan Dövlət İqtisad Universitetində bu il “Yaşıl UNEC” ili olacaq.



“Yaşıl UNEC” ili çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər Planının müzakirəsi məqsədilə UNEC rektoru professor Ədalət Muradov müvafiq strukturların, eləcə də tələbə təşkilatlarının rəhbərləri ilə görüşüb. Müzakirələr aparıldıqdan və yeni təkliflər səsləndirildikdən sonra 6 məqsəd üzrə 30-a yaxın müxtəlif tədbir və layihəni əhatə edən Tədbirlər Planı təsdiqlənib. Həmçinin “Yaşıl UNEC loqosu” da “Yaşıl UNEC İli”nin rəmzi kimi qəbul edilib.

**2024-cü il üçün loqo**

### Yaşıl Enerji UNEC günləri




27-29 fevral tarixlərində UNEC Rəqəmsal Könüllülər Təşkilatının təşəbbüsü və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərəfdaşlığı ilə UNEC-də “Green Energy UNEC Days” adlı layihə həyata keçirilib.
Layihənin ilk günündə tələbə könüllülərin iştirakı ilə ağacəkmə aksiyasına start verilib.
Sonra isə Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) və Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Eko-İnnovasiya Çağırışı: Gələcəyi Davamlı Yaşıllaşdırma" mövzusunda tələbələr arasında “Xəmsə” intellektual yarışı keçirilib.

# YAŞIL UNEC İLİ

Tələbələrin maraqla qatıldığı layihənin növbəti mərhələsi isə “Yaşıl Enerji Sərhədi: Dayanıqlı Enerji üzrə Elmi Tədqiqat Müsabiqəsi” olub. Müsabiqədə uğurla iştirak edən və qalib olan tələbələrə mükafatlar təqdim edilib.

Layihənin “Yaşıl yaradıcılıq" mövzusuna həsr olunan mərhələsində isə UNEC tələbələrinin yaşıl ekologiyaya həsr etdikləri bir-birindən maraqlı əl işləri sərgilənib, eyni zamanda ədəbi-bədii tədbir keçirilib.

3 gün davam edən və böyük maraqla qarşılanan layihinən sonuncu günündə qaliblərə hədiyyələr və sertifikatlar təqdim olunub.










## UNEC tələbələrindən “Yaşıl UNEC” ili çərçivəsində yeni layihə

UNEC tələbələri  “Yaşıl UNEC” ili çərçivəsində məişət tullantılarından istifadə edərək, bir-birindən maraqlı maket kompozisiyaları hazırlayıblar. UNEC Dizayn Məktəbinin tələbələri tərəfindən hazırlanan maketlər münsiflər heyəti tərəfindən dəyərləndirilərək, qaliblər müəyyən olunub.







Qeyd edək ki, layihənin məqsədi ətraf mühiti məişət tullantılardan qorumaqla, sağlam və təmiz mühit yaratmaq, eləcə də təkrar istifadə yolu ilə resursların bərpasını optimallaşdırmağa təşviq etməkdir.

# YAŞIL UNEC İLİ

## "Yer Saatı" aksiyası

"Yaşıl UNEC" ili tədbirlər planına uyğun olaraq, UNEC "Yer Saatı" aksiyasına qoşulub. Universitetin tədris binalarında işıqlar bir saatlığa söndürülüb.

*Videonu izləmək üçün*

Dünya Vəhşi Təbiət Fondunun (#WWF) təşəbbüsü ilə hər il mart ayının son şənbə günü dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq aksiyada həyati əhəmiyyət daşımayan bütün elektrik cihazları bir saatlığa söndürülür. Aksiyanın məqsədi insanların diqqətini qlobal iqlim dəyişikliyinə cəlb etməklə, onları iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə həmrəylik nümayiş etdirməyə, enerjiyə qənaət etməyə və ətraf mühitin, planetin qorunmasına təşviq etməkdir

## Xeyriyyələr və Digər Fəaliyyətlər

UNEC-in Qiyabi və Əlavə Təhsil Mərkəzi "Yaşıl UNEC" ili çərçivəsində ekoloji aksiyalar çərçivəsində 100 ağac tinginin əkilməsi üçün vəsait ayıraraq "Yaşıl Gələcək" kampaniyasına fəal töhfə verib.

UNEC-in Qiyabi və Əlavə Təhsil Mərkəzinin tələbələri ekoloji maarifləndirmə işlərinin bir hissəsi olaraq ekologiya, ekoloji problemlər, yaşıl enerji və COP-29 kimi ekoloji mövzulara həsr olunmuş bilik yarışmasında iştirak ediblər.

UNEC-in İqtisadiyyat və İdarəetmə fakültəsində "Qlobal İqlim Dəyişikliyi və Azərbaycanın İqlim Dəyişikliyinə Qarşı Əsas Fəaliyyət İstiqamətləri" mövzusunda seminar keçirilib, iqlim dəyişikliyinin təsirinin azaldılması strategiyaları və ekoloji problemlərin həllində Azərbaycanın rolu haqqında məlumat verilib.

# Daha ətraflı məlumat üçün

Yaşıl UNEC haqqında
xəbərləri  izləyin!

## Bizimlə əlaqə


www.unec.edu.az

unec@unec.edu.az

+994 12 492 59 03

İstiqlaliyyət küç. 6